Azərbaycan Respublikası
Səhiyyə Nazirliyi

unicef
unite for children

İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

# KÖRPƏ VƏ AZYAŞLI UŞAQLARIN QİDALANMASININ QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ

# HESABAT

Bakı – 2011

# Körpə və Azyaşlı Uşaqların Qidalanmasının Qiymətləndirilməsi

Uşaq Ölümünün azaldılması Minilliyin İnkişaf Məqsədlərindən biridir. Bu məqsəd 1990-cı ildən 2015-ci ilə kimi 5 yaşa qədər uşaqlar arasında ölümün üçdə iki dəfə azaldılmasından ibarətdir.[i] Uşaq ölümünün azaldılması daha çox neonatal ölüm probleminin həllindən asılıdır. Dünyada 5 yaşa qədər uşaqlar arasında ölüm hallarının təqribən 37%-i körpə həyatının 1 ayına, əksər hallarda isə birinci həftəsinə təsadüf edir.[ii]

Bu yaxınlarda keçirilən tədqiqatlar göstərmişdir ki, döşlə qidalandırmanın uşağın dünyaya gəlməsindən sonra 1 saat ərzində başlanması neonatal ölüm riskinin təxminən 3 dəfə azaldılmasına kömək edir. 6 aya qədər yalnız döşlə qidalandırılma 5 yaşa qədər uşaqlarda ölüm hallarının 13-15%-nin qarşısını ala bilər. 7 aydan başlayaraq müvafiq əlavə qidanın verilməsi ilə bərabər döşlə qidalandırmanın 2 yaşa qədər və daha artıq davam etdirilməsi ölüm riskini 6% və daha artıq azalda bilər.[iii]

Beş yaşadək uşaq ölümünün azaldılması "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın Tədbirlər Planına daxil edilmişdir.

Azərbaycanda körpə və azyaşlı uşaqların ana südü ilə qidalandırılmanın təmin olunması üçün dövlət səviyyəsində, o cümlədən Səhiyyə Nazirliyi tərəfindən bir neçə tədbir həyata keçirilmişdir. 2003-cü ildə "Körpələrin və erkən yaşlı uşaqların qidalanması" haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir.[iv] 2004-cü ildə ölkədə mövcud olan 77 doğuşa yardım tibb müəssisəsindən 67-si Körpə Dostu Klinikası statusunu almışdır.[v]

2006-cı ildə Ana və uşaqların sağlamlığının qorunması üzrə Dövlət Proqramı (2006-2010) təsdiq edilmişdir.[vi] Bu proqramda nəzərdə tutulmuş 7 Perinatal Mərkəzdən 6-sı (Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Quba, Sabirabad) artıq fəaliyyət göstərir. Digər biri isə yaxın vaxtlarda istifadəyə veriləcək.[vii]

Bununla yanaşı 2006-cı ildə keçirilmiş Demoqrafiya və Sağlamlıq Sorğusunun nəticələrinə əsasən 6 aya qədər olan uşaqlar arasında yalnız döşlə qidalandırılanlar 12% təşkil etmişdir. Doğuşdan sonra 1 saat ərzində döşlə qidalandırılan uşaqlar 32% təşkil etmişdir. Bu faiz kənd yerlərindəki körpələrlə müqayisədə şəhər yerlərində doğulan körpələrdə əhəmiyyətli dərəcədə aşağıdır. Döşlə qidalandırılan uşaqların 39% ilk döşlə qidalandırmadan əvvəl maye qəbul etmişlər.

Ana südü körpələr üçün optimal qida mənbəyidir. Yenidoğulmuşların ana südü ilə qidalandırılması həm ana, həm uşaq üçün vacibdir. [viii] Döşlə qidalandırmanı süni immunlaşdırmadan fərqli və daha yaxşı olan təbii immunlaşdırma hesab etmək olar. [ix] Ana südündə olan hüceyrələr körpədə immun cavabı nizamlayaraq, bağırsaq və respirator infeksiyalardan, ananın keçirdiyi infeksiyalara qarşı ifraz olunan anticismlər isə uşağı infeksion xəstəliklərdən qoruyur. Həmçinin südün tərkibində olan maddələr uşağın inkişafını, immun sistemi, mərkəzi sinir sisteminin yetişməsini təmin edir. Döşlə qidalandırma uşaqda aşağı tənəffüs yollarının xəstəlikləri riskini azaldır.[x] Erkən döşə qoyulma anada laktasiyanı stimullaşdırır, həm də sonradan müntəzəm döşlə əmizdirmə üçün stimuldur. Döşlə qidalandırma anaya və uşağa müsbət psixoemosional təsir göstərir, bununla bərabər erkən zahılıq dövründə uşaqlığın tez və yaxşı yığılmasına səbəb olur.

Döşlə qidalandırma ovulyasiya və menstruasiyanın qarşısını alır. Bu da təbii fizioloji qorunma üsuludur. Bu üsulun effektivliyi o zaman yüksək olur ki, ana uşağı ehtiyac olduqda gecə və gündüz, gündə 8-10 dəfədən az olmadan və 5 saatdan çox olmayan intervallarla yalnız döşlə qidalandırır. [xi]

Doğuşa yardım tibb müəssisələri yenicə ana olmuş qadınlar üçün əsas və ən yaxşı nümunə mənbəyidir. UNİCEF və Ümumdünya Səhiyyə Təşkilatının səyləri nəticəsində bütün doğuşa yardım müəssisələrinin döşlə qidalanmanı dəstəkləyən mərkəzlərə çevrilməsini təmin etmək üçün Körpə Dostu Klinikası Təşəbbüsü 1991-ci ildən irəli sürüşmüşdür. Doğuşa yardım tibb müəssisəsi pulsuz və ucuz ana südü əvəzedicilərini və əmzik, əmzikli qabları qəbul etməzsə və uğurlu döşlə qidalandırmanı təmin edən 10 spesifik addımı tətbiq edərsə, o zaman həmin müəssisə “körpə dostu” statusunu ala bilər. Körpə Dostu Klinikası tərəfindən həyata keçirilməli olan bu on addımdan biri də yeni doğulan körpənin ana ilə eyni otaqda qalmasını təmin etməkdir.[xii]

Səhiyyə Nazirliyi ilə UNİCEF-in Azərbaycan nümayəndəliyi arasında imzalanmış 2010-cu il üzrə İllik İş Planına əsasən “Körpə və azyaşlı uşaqların qidalanmasının qiymətləndirilməsi” layihəsinin keçirilməsi planlaşdırılmışdır. Bu layihənin icrası İctimai Səhiyyə və İslahatlar Mərkəzinə həvalə olunmuşdur.

**Qiymətləndirmənin məqsədi.** Ana və tibb işçilərinin körpə və azyaşlı uşaqların qidalandırılması haqqında bilik, yanaşma və təcrübələrinin qiymətləndirilməsi vasitəsilə uşaqların qidalandırılması sahəsində mövcud vəziyyətin, eləcə də marketlərdə satılan uşaq qidalarının mövcudluğunu və bu qidanın üzərindəki informasiyanın Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsi.

**Qiymətləndirmənin vəzifələri**

1. Uşaqların döşlə qidalandırılması, əlavə qidanın verilməsi və qidalandırma zamanı yaranan çətinliklərin həlli haqqında şəhərlərdə yaşayan, 0-dan 2 yaşa qədər uşaqların analarının bilik və təcrübələrinin öyrənilməsi.
2. Körpə və azyaşlı uşaqların döşlə qidalandırılması, əlavə qidanın verilməsi və qidalandırma zamanı yaranan çətinliklərin həlli haqqında bütün səviyyəli tibb müəssisələrində işləyən və qadınlara doğuşdan əvvəl və sonrakı dövrlərdə məsləhət xidmətlərini göstərən tibb işçilərinin bilik və yanaşmalarının öyrənilməsi.
3. Marketlərdə uşaq qidalarının mövcudluğunu və bu qidanın üzərindəki informasiyanın "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunluğunun araşdırılması.

**Qiymətləndirmənin hədəf qrupları**

A) 2009-cu ilin yanvar ayından 2010-cu ilin dekabr ayınadək (dekabr ayı daxil olmaq şərti ilə) doğulan uşaqların anaları;

B) doğuşdan əvvəl, doğuş zamanı və doğuşdan sonrakı dövrlərdə qadınlara məsləhət xidməti göstərən tibb müəssisələrinin (qadın məsləhətxanaları, uşaq poliklinikaları, feldşer mama məntəqələri, həkim məntəqələri, doğum evləri, perinatal mərkəzlər, MRX-lərin doğum şöbələri, K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutu, Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitutu və Respublika Perinatal Mərkəzi daxil olmaq şərti ilə) işçiləri (ginekoloqlar, pediatrlar, neonatoloqlar, feldşerlər, mamalar və sahə/patronaj tibb bacıları);

C) uşaq qidasının satışı ilə məşğul olan marketlər.

**Araşdırma üsulları**

Araşdırma sorğu və müşahidə vasitəsilə aparılıb.

*Sorğu:*

Sorğu 0-dan 2 yaşa qədər uşaqları olan analar və qadınlara/analara məsləhət xidmətini göstərən tibb işçiləri arasında aparılmışdır. Analar və tibb işçiləri üçün fərqli sorğu anketləri tərtib olunmuşdur.

Tibb işçilərinin işini qiymətləndirmək üçün doğum evlərində/şöbələrində zahı qadınlar arasında da sorğu aparılmışdır. Zahı qadınların sorğusu üçün suallar tibb işçilərinin anketlərinə əlavə olunmuşdur. Analar üçün nəzərdə tutulmuş anketlərə yaşayış şəraitinin qiymətləndirilməsi üçün də suallar əlavə olunmuşdur.

*Müşahidə:*
Marketlər üçün müşahidə vərəqəsi hazırlanmışdır.

**Seçim**

Sorğunun keçirilməsi üçün ölkə ərazisini şərti olaraq 5 klasterə bölmək qərara alınmışdır: Bakı, şimal-şərq, şimal-qərb, cənub-qərb, cənub-şərq.

Bakıda yaşayan əhalinin 2 064 900 nəfər (Dövlət Statistika Komitəsi, 2009 il), yəni ölkə əhalisinin təxminən 23% təşkil etdiyini, respublikamızda doğulan uşaqların təxminən 27% Bakıya təsadüf etdiyini və ET Mamalıq və Ginekologiya İnstitutu, K.Fərəcova adına ET Pediatriya İnstitutu, Respublika Perinatal Mərkəzi, 5 şəhər klinik xəstəxanası, 14 birləşmiş şəhər xəstəxanası və 6 doğum evinin Bakıda yerləşməsini nəzərə alaraq Bakı ayrı bir klaster kimi götürülmüşdür.

Şimal-şərq, şimal-qərb, cənub-qərb, cənub-şərq klasterlərinin hər birindən 1 şəhər (uyğun olaraq Quba, Gəncə, İmişli, Lənkəran) məqsədli seçim (*purposive sampling*) üsulu ilə götürülmüşdür. Bu şəhərlərdən üçündə Perinatal Mərkəz yerləşir və ətraf şəhər və kəndlərdən pasiyent axını məhz bu regionlara təsadüf edir.

Bakının 11 inzibati rayonundan 3 rayon seçilmişdir. Bakıda sorğu aparılan tibb müəssisələrinin siyahısına K.Fərəcova adına ET Pediatriya İnstitutu, ET Mamalıq və Ginekologiya İnstitutu və Respublika Perinatal Mərkəzi də əlavə olunmuşdur.

Statistik hesablama nəticəsində, 2009-2010-cu illərdə doğulan uşaqlardan 384 nəfər seçilmişdir. Bu da *confidence level 95%* təşkil edir. Cavab verməyənlərin sayını nəzərə alaraq bu rəqəmə 20% respondent əlavə olunmuşdur.

Uşaqların mərkəzi rayon xəstəxanalarından götürülmüş siyahıları əsasında *Excel*-in *random* funksiyası ilə təsadüfi seçim əsasında sorğu üçün hər bir yaş qrupu üzrə ayrıca siyahılar tərtib olunmuşdur.

Vaxt və resursların məhdudiyyəti nəzərə alınaraq, tədqiqata 132 tibb işçisi cəlb olunmuşdur. Hər bir klaster üçün ən azı 20 nəfər tibb işçisi nəzərdə tutulmuşdur. Bu rəqəm ölkə üzrə reprezentativ rəqəm olmamasına baxmayaraq imkan verir ki, tibb işçilərinin fərqli fikirləri hazırkı tədqiqatın nəticələrində öz əksini tapsın.

Müəssislərdə tibb işçilərinin sayı əlçatanlıq *(reliance on available subjects)* üsulu ilə seçilib.

Hər bir seçilmiş şəhərdə təsadüfi seçim yolu ilə 3 market götürülmüşdür.

**Sorğu üçün seçilmiş 0-dan 2 yaşa qədər uşaqların və tibb işçilərinin şəhərlər üzrə bölgüsü**

| | Şəhərin adı | | Ana/uşaqların sayı | Tibb işçilərinin sayı |
|---|---|---|---|---|
| 1. | Bakı | A. Sabunçu rayonu | 87 | 13 |
| | | B. Nizami rayonu | 51 | 6 |
| | | C. Nəsimi rayonu | 55 | 6 |
| | | D. Respublika Perinatal Mərkəzi, ET Mamalıq və Ginekologiya İnstitutu, ET Pediatriya İnstitutu | | 20 |
| 2. | Gəncə | | 81 | 22 |
| 3. | Quba | | 53 | 22 |
| 4. | Lənkəran | | 82 | 21 |
| 5. | İmişli | | 47 | 22 |
| | Cəmi | | 456 | 132 |

**Daxil etmə meyarları:** 1. diri uşaqlar; 2. doğma uşaqlar

**İstisna meyarları:** 1. ölü uşaqlar; 2. ögey uşaqlar

**Sorğu anketləri**

Analar üçün sorğu anketləri ÜST-nin yenidoğulmuş və körpə uşaqların qidalandırılmasının qiymətləndirmə indikatorları (*Indicators for assessing infant and young child feeding practices-WHO*, 2007), eləcə də A. Kornelinin (*A. Corneli, Adapted from question guides from the formative research study on factors influencing iron supplementation, breastfeeding, and dietary practices of internally displaced populations in Azerjaijan*, 1998) sual nümunələri əsasında qurulmuş və DSS-2006 sualları ilə uyğunlaşdırılmışdır.

Analar üçün anket respondent haqqında məlumat, ananın bilikləri və bilik mənbəyi, uşaq haqqında məlumat, ananın təcrübəsi və ev şəraitinin qiymətləndirilməsi hissələrindən ibarətdir. Anket 70

sualdan ibarətdir.

Tibb işçiləri üçün anket A. Kornelinin (*A. Corneli, Adapted from question guides from the formative research study on factors influencing iron supplementation, breastfeeding, and dietary practices of internally displaced populations in Azerjaijan*, 1998) sual nümunələri əsasında qurulmuşdur. Tibb işçilərinin işinin qiymətləndirilməsi məqsədi ilə anketə suallar əlavə olunmuşdur. Bu suallar həmin müəssisədə yatan zahı qadınların sorğusu üçün nəzərdə tutulmuşdur. Anket 57 sualdan ibarətdir.

Marketlərin müşahidəsi üçün suallar "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Azərbaycan Respublikasının Qanunu əsasında hazırlanmışdır. Anket 10 sualdan ibarətdir.

Sual forması açıq və ya bağlı suallardan ibarət olmasına baxmayaraq yığılan məlumatın SPSS proqramına rahat daxil edilməsini təmin etmək üçün anketlərdəki cavablar kodlaşdırılmış formatda hazırlanmışdır.

**İntervüyerlərin təlimi, pilot testi və sahə işləri**

İntervüyerlərin təlimi üçün təqdimat hazırlanmış, sahəyə çıxmamışdan əvvəl layihə intervüyerlərinə layihə koordinatoru tərəfindən bir günlük təlim keçirilmiş, sorğunun keçirilmə qaydaları və anketlərdəki suallar izah edilmişdir.

İntervüyerlər əvvəlcə Bakı şəhərində layihə koordinatorunun nəzarəti altında sorğu anketlərinin pilot testini keçirmişlər. Pilotun əsasında sual anketlərinə yenidən baxılmış və onlara lazımi redaktə edilmişdir. Sual nümunələrinə edilən dəyişikliklər və düzəlişlər əsasən söz düzülüşünə, dizayn və formata aid idi. Dəyişikliklər K.Fərəcova adına ET Pediatriya İnstitutu və İctimai Səhiyyə və İslahatlar Mərkəzinin ekspertləri və Səhiyyə Nazirliyinin baş pediatrı tərəfindən razılaşdırılmışdır.

Sonda ekspertlərin sorğu aparacaqları regionlar üzrə bölgüsü təyin olunmuşdur.

Sahə işləri on gün ərzində aparılmışdır. 7 nəfər intervüyer 3 marşrut üzrə bölünmüşdür: Quba-Gəncə, İmişli-Lənkəran və Bakı. 3 nəfər Bakıda, 4 nəfər isə digər şəhərlərdə sorğu aparmışlar. Sahə işləri bitdikdən sonra anketlərin qəbulu aktlaşdırılmışdır. İntervüyerlərlə yekun görüş zamanı fikir mübadiləsi aparılmışdır.

## Məlumatların daxil edilməsi

Respondentlərdən toplanan məlumatlar kompüter məlumat bazasına, SPSS 17 proqramına daxil edilmişdir. 4 operator 7 gün ərzində məlumatları proqrama daxil etdilər. Səhv ehtimalının azaltmaq məqsədi ilə məlumatlar proqrama 2 dəfə daxil edildi.

## MƏLUMATLARIN TƏHLİLİ

### Anaların sorğusu

### Respondent haqqında məlumat

456 nəfər cəmi sorğu olunmuş anadan əksəriyyəti evlidir (98.2%) və 18-52 yaşlar arasında olan qadınlardır. Qadınların 1.5%-i boşanıb/ayrılıb, 0.2%-i isə duldur.

Uşaq və özü də daxil olmaqla anaların 25.7%-nin ailəsi 5 nəfər, 25.4% - 4 nəfər, 18.2% - 6 nəfər, 12.3% - 3 nəfər, 8.6% - 7 nəfər, 4.6% - 8 nəfər, 3.9% - 10 və daha artıq, 1.1% - 9 nəfər, 0.2% isə 2 nəfərdən ibarətdir. Anaların 45%-də 1 uşaq, 40.4%-də 2 uşaq, 12.1%-də 3 uşaq, 2.6%-də isə 4 və daha artıq uşaq var. Uşağa qulluq etməkdə anaların 28.3% qayınana, 7% həyat yoldaşı, 5.9% ana, 4.8% qayınana və həyat yoldaşı, 3.5% qayınana və ana, 2.9% qayınana və baldız, 2.4% qayınana və qayınata, 1.8% baldız, 1.1% qayınana və qaynın yoldaşı, 0.7% uşaqlar, 0.4% qayınata, 0.4% qayınana və uşaqlar, 0.2% qayının yoldaşı kömək edir, 23% isə heç kim kömək etmir. Digərləri isə müxtəlif variantlar söyləmişlər.

**Cədvəl 1. Respondentlərin yaşı (sayla)**



Anaların təhsil səviyyəsini aşağıdakı kimi qiymətləndirmək olar: 38.2% - tam orta təhsilli, 22.6% - ali təhsilli, 16.9% - texniki təhsilli, 12.3% - əsas orta təhsilli, 5.9% - ibtidai məktəbi bitirmiş, 2.4% - natamam ali təhsilli, 0.9% - texniki peşə məktəbi bitirmiş, 0.9% isə heç bir təhsil almamışdır.

**Cədvəl 2. Anaların təhsil səviyyəsi (%)**




Anaların 82.7% evdar qadın və ya tələbə, 10.1% müvəqqəti işləmir, yəni sosial məzuniyyətdədir, 7.2% isə işləyir. İşləyən və ya oxuyan qadınların evdə olmadığı vaxt ərzində 27.5%-nin uşaqları - süni qida və əlavə qida, 13.9%-nin sağılmış ana südü, 27.8%- ailənin süfrə xörəkləri alırlar.

**Körpə uşağın qidalandırılması haqqında ananın biliyi və bilik mənbəyi**

80.7% analara tibb işçiləri tərəfindən döşə qoyulma qaydaları öyrədilmişdir, öyrədilməyən anaların (88 nəfər) 39.8% Lənkəran, 35.2% İmişli, 17% Bakı, 8% Gəncə şəhərlərindəndir. Döşə qoyulma qaydaları ilk dəfə 84.3% analara – doğuşdan dərhal sonra, 8.7% analara qadın məsləhətxanasında, 6.8% analara – doğuşdan sonra tibb işçisi tərəfindən deyilib. Anaların 0.3% bunu bildiklərini söyləmişlər.

**Cədvəl 3. Döşə qoyulma qaydaları ilk dəfə analara nə vaxt öyrədilib**



Anaların 91.7% körpə uşaqların qidalandırılması haqqında məlumat alıblar. İlk dəfə bu məlumatı anaların 84% tibb işçisindən, 12.2% - qayınana, ana, rəfiqə, qonşu, 2.2% televiziya, radio, kitabdan aldıqlarını, 1% yadında olmadığını, 0.7% - digər variantlar söyləmişlər. Anaların 65.9% uşağın qidalanması haqqında məlumatı ilk dəfə doğuşdan dərhal sonra, 19% - doğuşdan sonra, 14.6% isə doğuşdan əvvəl alıblar. Anaların 70% bu məlumatı doğum evində, Mərkəzi Rayon Xəstəxanasında və Perinatal Mərkəzdə, 16.8% - poliklinikada, 9.4% - qadın məsləhətxanasında almışlar.

**Analar körpə uşaqların qidalandırılması haqqında məlumatı nə vaxt və harada alıblar**

| | | | |
|---|---|---|---|
| doğuşdan əvvəl | 14.6% | qadın məsləhətxanasında | 9.4% |
| doğuşdan dərhal sonra | 65.9% | doğum evində, Mərkəzi Rayon Xəstəxanasında və Perinatal Mərkəzdə | 70% |
| doğuşdan sonra | 19% | poliklinikada | 16.8% |

Qadınların 77.1% uşaqların sağlamlığına aid məlumatları adətən tibb işçilərindən (bunların 92.6% - həkim, 6.9% - həkim və tibb bacısı, 0.5% - tibb bacısıdır), 15.8% - həm həkimdən, həm qayınana/anasından, 5.1% isə qayınana/anasından alırlar.

**Qadınlar uşaqların sağlamlığına aid məlumatları adətən kimdən alırlar**

| | |
|---|---|
| tibb işçilərindən | 77.1% |
| həm həkimdən, həm qayınana/anasından | 15.8% |
| qayınana/anasından | 5.1% |

Anaların 44.3% hesab edir ki, uşağı 1 yaşa qədər döşlə qidalandırmaq lazımdır, 37.9% - 2 yaşa qədər, 9% - süd kəsilənə qədər, 7.5% - 6 ayına qədər, 1.3% - digər fikirlər söyləmişlər.

Bakı şəhəri üzrə uşağı 6 aya qədər döşlə qidalandırmaq lazımdır deyən analar 8.8%, İmişli üzrə 8.5%, Gəncə üzrə 7.5%, Quba üzrə 5.8%, Lənkəran üzrə 4.9%, təşkil edir. Bakı şəhəri üzrə uşağı 1 yaşa qədər döşlə qidalandırmaq lazımdır deyən analar 55.4%, Lənkəran üzrə 42.7%, Gəncə üzrə 37.5%, İmişli üzrə 31.9%, Quba üzrə 26.9% təşkil edir. İmişli şəhəri üzrə uşağı 2-3 yaşa qədər döşlə qidalandırmaq lazımdır deyən analar 59.6%, Quba üzrə 51.9%, Gəncə üzrə 43.8%, Lənkəran üzrə 41.5%, Bakı üzrə 24.9% təşkil edir. Quba şəhəri üzrə uşağı süd kəsilənə qədər döşlə qidalandırmaq lazımdır deyən analar 15.4%, Gəncə üzrə 11.3%, Bakı üzrə 10.4%, Lənkəran üzrə 4.9% təşkil edir. İmişlidə belə cavab verən olmamışdır.

**Anaların fikrincə uşağı nə vaxta qədər döşlə qidalandırmaq lazımdır**

| | |
|---|---|
| 6 aya qədər | 7.5% |
| 1 yaşa qədər | 44.3% |
| 2-3 yaşa qədər | 37.9% |
| Süd kəsilənə qədər | 9% |
| Digər | 1.3% |

Bununla bağlı "Niyə belə düşünürsünüz?" sualına anaların 75.4% uşaq üçün xeyirli, 8.6% uşaq və ana üçün xeyirli, 2.2% uşağa xeyirlidir və anada hamiləliyin qarşısını alır, 0.9% ana üçün xeyirli, 0.2% anada hamiləliyin qarşısını alır, uşaq və ana üçün xeyirli cavabı, 12.7% isə digər fikirlər söyləmişlər.

Heç bir maye vermədən uşağın 6 ayına qədər yalnız döşlə qidalandırılmasının anaların 50.3% kifayət olmadığını, 45.3% - kifayət olduğunu, 4.4% bilmədiklərini söyləmişlər.

**Cədvəl 4. "Su, çay və ya heç bir başqa maye verilməməsi şərti ilə körpənin ilk 6 ayına kimi yalnız ana südü ilə qidalandırılması kifayət edərmi?" sualına respondentlərin cavabları**




Anaların 78.2% hesab edir ki, yenidoğulmuş və ya körpə uşaq döş südündən imtina edərsə, uşağa süni qida, 5.3% - əlavə qida, 1.8% - başqa süd, 1.3% - süni və əlavə qida, 0.9% - ailənin süfrə xörəkləri verilməlidir. Anaların 8.8% - yenidən döşlə əmizdirməyə cəhd etmək lazımdır demiş, 3.1% digər variantlar söyləmiş, digər 0.7% isə bu suala cavab verməkdən imtina etmişlər.

Anaların 40% hesab edir ki, əlavə qida dedikdə süni qida nəzərdə tutulur.

Qadınların 69.1% hesab edir ki, körpə uşağa əlavə qida 6 ayından, 26% isə - ilk 5 ayı ərzində verilməlidir. Digərləri müxtəlif fikirlər söyləmişlər.

**Uşaq haqqında məlumat**

Sorğu olunan anaların uşaqları 52.2% oğlan, 47.8% isə qızdır. Bu uşaqların 86.8% fizioloji doğuşla dünyaya gəlib, 12.8% - keysəriyyə kəsiyi əməliyyatı, 0.4% isə maşa və vakuum vasitəsi köməyi ilə doğulub.
Uşaqların əksəriyyəti (92.9%) dövlət xəstəxanalarında, 4.4% özəl xəstəxanalarda, 2.7% isə evdə doğulmuşlar.

Doğulan uşaqların 64.5% ana ilə fərqli otaqlarda, 34.3% - ana ilə eyni otaqda, 1.1% isə intensiv terapiya palatasında yerləşdirilmişdir.

**Cədvəl 5. Uşaqların doğum evində harada yerləşdirilməsi**




**Uşağın qidalandırılması haqqında məlumat və ananın bu sahədə təcrübəsi**

2 yaşa qədər olan uşaqlar arasında 95.1% nə vaxtsa döşlə əmizdirilib, 4.9% (21 nəfər) isə heç bir zaman döşlə əmizdirilməyib.

Heç bir zaman uşağı döşlə əmizdirməyən anaların 37.5% (9 nəfər) bunu südünün az olması/ olmaması ilə, 12.5% (3 nəfər) süddə infeksiyanın olması, 12.5% (3 nəfər) uşaq imtina etməsi

səbəbləri, 8.4% (2 nəfər) anada xəstəliyin ( vərəm, İİV ) olması, 29.1% (7 nəfər) isə müxtəlif mülahizələr ilə izah etdilər.

Heç bir zaman döşlə əmizdirməyən anaların 50% (12 nəfər) hal-hazırda uşağa süni qida (bunların 41.7% 0-5 aylıq uşaqlardır), 20.8% ailənin süfrə xörəkləri (bunların 57.1% 16-23 aylıq uşaqlardır), 12.5% süni qida və əlavə qida, 8.3% süni qida və ailənin süfrə xörəkləri verirlər. Digərləri müxtəlif fikirlər söyləmişlər.

Uşaqların 21.2% doğulduqdan dərhal sonra və ya 1 saat ərzində döşlə əmizdirilib.

**Cədvəl 6. Uşaq doğulduqdan neçə müddət sonra ilk dəfə döşlə əmizdirilib**




2 yaşa qədər uşaqların 48.4% analarla müsahibə aparılan zaman döşlə əmizdirilirdi, bunlardan 47.2% 0-dan 6 aya qədər olan uşaqlardır. 0-5 aylıq uşaqların 75.8% analarla müsahibə aparılan zaman döşlə əmizdirilirdi. Döşlə əmizdirməyən anaların 75.4%-nin dediklərinə görə, südün olmaması və ya az olması və uşağın imtina etməsi səbəblərinə görə döşlə əmizdirməyi dayandırıblar.

Anaların 209 nəfərindən 65.6% uşaqlarını 6 ay, 29.1% 12 ay, 5.3% 18 ay döşlə qidalandırıblar. Həmin uşaqların 31.9% bir neçə gün , 15.7% - 1 ay, 11.4% - 2 ay, 12.9% - 3 ay, 8.1% - 4 ay, 3.8% - 5 ay, 11.4% - 6 ay yalnız döşlə əmizdirilib.

Tədqiqat zamanı məlum olmuşdur ki, hal-hazırda döşlə əmizdirməyən anaların 85.6% uşaqları gecələr döşlə əmizdirib. Hal-hazırda döşlə əmizdirən anaların 92.3% uşaqlarını gecələr döşlə əmizdirir. Gecələr döşlə əmizdirməyən anaların 31.3%-nin uşaqları 0-5 aylıq uşaqlardır.

Hal-hazırda döşlə qidalandırmayan analardan 40.4% uşaqlarına ana südünü uşaq nə vaxt istəsə vermişlər.

Hal-hazırda döşlə qidalanmayan uşaqların 20.2% ailənin süfrə xörəkləri ilə (bunların 90.9% 12-23 ay, 9.1% isə 6-11 aylıq uşaqlardır), 14.7% - əlavə qida və ailənin süfrə xörəkləri ilə (bunların 90.6% 12-23 ay, 9.4% 6-11 aylıq uşaqlardır), 13.8% süni qida ilə (bunların 80% 0-5 ay , 20% isə 6-11 aylıq uşaqlardır), 10.1% - əlavə qida və hər hansı bir süd ilə (bunların 54.5% 6-11 ay, 45.5% 12-23 aylıq uşaqlardır), 7.8% əlavə qida, hər hansı bir süd və ailənin süfrə xörəkləri ilə (bunların 82.3% 12-23 ay, 17.7% 6-11 aylıq uşaqlardır) ilə qidalanırlar.

Ötən gün ərzində uşağa neçə dəfə süd vermisiniz sualına döşlə qidalandırmayan anaların 44.6% 1-2 dəfə (bunların 54.7% 16-23 ay, 24.4% 6-11 ay, 17.4% 12-15 ay, 3.5% 0-5 aylıq uşaqlardır), 20.7% 3-4 dəfə (bunların 32.5% 6-8 ay, 30% 16-23 ay, 17.5% 9-11 ay, 15% 12-15 ay, 5% 0-5 aylıq uşaqlardır), 11.9% 5-6 dəfə (bunların 60.9% 0-5 ay, 26.1% 6-8 ay, 8.7% 9-11 ay, 4.3% 16-23 aylıq uşaqlardır), 6.2% 7-10 dəfə (bu uşaqların 91.7% 0-5 ay, 8.3% 6-8 aylıq uşaqlardır) cavabları söyləmişlər. Anaların 16.6% uşaqlarına ötən gün ərzində heç bir süd verməmişlər. Bunların 50% 16-23 ay, 28.1% 12-15 ay, 18.8% 6-11 ay, 3.1% 0-5 aylıq uşaqlardır.

Ötən gün ərzində uşağı neçə dəfə döşlə qidalandırmısınız sualına anaların 31.5% 5-6 dəfə (bunların 43.8% 0-5 ay, 23.4% 9-11 ay, 17.2% 6-8 ay, 7.8% 12-15ay, 7.8% 16-23 aylıq uşaqlardır), 25.6% gündə 3-4 dəfə (bunların 36.5% 0-5 ay, 23.1% 6-8 ay, 19.2% 9-11 ay, 13.5% 12-15 ay, 7.7% 16-23 aylıq uşaqlardır), 22.7% gündə 7-8 dəfə (bunların 65.2% 0-5 ay, 19.6% 6-8 ay, 10.9% 9-11 ay, 4.3% 12-15 aylıq uşaqlardır), 10.3% 9 dəfən artıq (bunların 61.9% 0-5 aylıq uşaqlardır), 8.9% gündə 1-2 dəfə (bunların 32.2% 0-5 aylıq uşaqlardır) demişlər. Bu anaların 1% isə ötən gün ərzində uşağına süd verməyib (12-19 aylıq uşaqlardır).

Analardan 202 nəfəri südü uşağına kifayət edirmi sualına 52% bəli, 48% isə xeyr cavabı vermişlər. Mənfi cavab vermiş anaların 37.1% 0-5 aylıq uşaqları olan analardır.

Südün uşaq üçün yetərli olmadığını necə təyin edirsiniz sualını anaların 86.6% uşağın tez-tez ağlaması, uşağın zəif, yuxulu, yorğun və arıq olması ilə izah etmişlər.

2 yaşa qədər uşaqların 78%-nə əlavə qida verilir, bunlardan 13.1% 0-5 aylıq uşaqlardır. 6 aya qədər uşaqlar arasında əlavə qida alan uşaqlar 34.4% təşkil edir.

324 nəfər uşaqlardan 30.3% ötən gün ərzində 3 növ, 27.5% 4 növ , 17.2% 5 növ, 13.9% 2 növ, 5.9% 6 növ və 5.2% 1 növ qida məhsulu ilə qidalanmışdır. Bu məhsullarla ötən gün ərzində uşaqların 34.1% 1 dəfə, 23.7% 2 dəfə, 20.4% 3 dəfə, 15.3% 4 dəfə, 6.6% 4 dəfədən artıq qidalanıblar. Bu qida uşaqların 53.9% qaşıqla (bunların 6.1% 0-5 aylıq uşaqlardır), 19.5% əmzikli şüşə qabda və qaşıqla (12.3% 0-5 aylıq uşaqlardır), 8.4% qaşıqla və fincanda (bunların 3.6% 0-5 aylıq uşaqlardır), 6% əmzikli qabda, 4.5% əmzikli plastik qabda və qaşıqla verilir. Digər analar müxtəlif mülahizələr söyləmişlər.

**Ötən gün ərzində uşaqlar neçə növ qida məhsulu ilə qidalandırılmışlar və bu qida onlara nə ilə verilmişdir.**

| | | | |
|---|---|---|---|
| 1 növ qida məhsulu | 5.2% | qaşıqla | 53.9% |
| 2 növ qida məhsulu | 13.9% | əmzikli şüşə qabda və qaşıqla | 19.5% |
| 3 növ qida məhsulu | 30.3% | qaşıqla və fincanda | 8.4% |
| 4 növ qida məhsulu | 27.5% | əmzikli qabda | 6% |
| 5 növ qida məhsulu | 17.2% | əmzikli plastik qabda və qaşıqla | 4.5% |

Respondentlərin 55.3%-i uşaqlarına əlavə qidanı 6 ayından, 43.5%-i isə ilk 5 ayından verməyə başlayıblar. Anaların 1.2% isə əlavə qidanı nə vaxt verdiklərini xatırlamadıqlarını söyləmişlər. Uşağa bu yaşda əlavə qidanın verilməsini anaların 52.8% həkimin məsləhət görməsi ilə, 27.9% isə ailəsinin, yaxınlarının məsləhət görməsi ilə izah etmişlər. Digər analar müxtəlif fikirlər söyləmişlər.

Sorğu olunan anaların uşaqlarının 64%-nə su, şirin su, 11.4%-nə digər maye, 8.8%-nə çay, şirin çay, 5.3%-nə süni qida, 2.3%-nə şüyüd suyu ilk verilən maye olub. Digər uşaqlara ilk verilən maye bal, süd, meyvə şirəsi və süni qida olub.

0-dan 6 aya qədər olan uşaqların yalnız 10.2%-nə su və digər maye verilməmişdir.

Bütün uşaqların 83%-nə maye doğulan günü və ya ilk 3 gün ərzində verilmişdir. Bunun səbəbini anaların 37.1% xəstəxanada uşağa maye verilməsi, 33.9% tibb işçisinin onlara öyrətməsi, 19.6% isə ailənin, yaxınlarının məsləhət görməsi ilə izah ediblər.

2 yaşa qədər olan uşaqların analarının 70.8%-i ötən gün ərzində uşağı qidalandırmaq üçün əmzikli qabdan istifadə etdiklərini söyləmişlər. Bunların əksəriyyəti 1 yaşa qədər olan uşaqlardır (31.5% 0-5 ay, 18% - 6-8 ay, 15.4% - 9-11 ay).

**Ev şəraitinin qiymətləndirilməsi**

Anaların dediklərinə görə ötən gün ərzində 70.6% 3 dəfə, 18.9% 4 dəfə, 7.9% 1-2 dəfə, 2.6% 5 dəfə və artıq qida qəbul etmişlər.

Anaların yalnız 7.4 % yaşadığı evin kirayə, 89.2% isə şəxsi və ya hökumət evi olduğunu söyləyiblər. Evlərin 42.8% 3 otaq, 25.3% 2 otaq, 16.9% 4 otaq, 6.6% 5 otaq, 3.9% 1 otaq, 2.4% 7 otaqdan artıq, 2.1% 6 otaqdan ibarətdir. Evlər əsasən qaz və elektrik soba ilə (74.4%) qızdırılırdı. Axar su respondentlərin 5.5%-də yox idi. Yalnız 2 ailənin evində elektrik enerjisi yox idi, bu da Lənkəran şəhərinə təsadüf etmişdir.

Anaların əksəriyyətində telefon (81.9%), soyuducu (97.8%) və televizor (99.6%) var idi. Paltaryuyan maşın 66.1%, kondisioner isə - 40.5% ailələrdə mövcud idi.

# TİBB İŞÇİLƏRİNİN SORĞUSU

132 nəfər tibb işçisi arasında 24 ginekoloq (18.2%), 47 pediatr (35.6%), 15 neonatoloq (11.4%), 13 tibb bacısı (9.8%), 18 mama (13.6%), 14 sahə tibb bacısı (10.6%) və 1 feldşer (0.8%) olmuşdur.

Bu tibb işçilərindən 129 nəfəri qadınlara/hamilələrə uşaqların qidalanmasına dair məsləhət verdiklərini, digər 3 nəfəri (2 sahə tibb bacısı və 1 mama) isə məsləhət vermədiklərini söyləmişlər. Bunu məsləhət verməyin öhdəliklərinə daxil olduğunu bilmədikləri ilə izah etmişlər.

**Cədvəl 7. Tİbb işçilərinin vəzifə üzrə bölgüsü (%)**



Tibb işçilərinin iş stajı - 33.3%-nin 20 ilə qədər, 30.2%-nin 30 ilə qədər, 17.8%-nin 40 ilə qədər, 9.3%-nin 5 ilə qədər, 4.7%-nin 10 ilə qədər, 4.7%-nin 40-51 ilə qədərdir.

**Tibb işçilərinin iş stajı**

| | |
|---|---|
| 5 ilə qədər | 9.3% |
| 10 ilə qədər | 4.7% |
| 20 ilə qədər | 33.3% |
| 30 ilə qədər | 30.2% |
| 40 ilə qədər | 17.8% |

"Yenidoğulmuş və ya körpə uşaqların qidalanmasına dair adətən hansı məsləhəti verirsiniz?" sualına tibb işçilərinin 51.2% döşlə qidalanmanın başlanması, 14% döşlə qidalanmanın başlanması və əlavə qidanın nə vaxt verilməsi, 12.4% döşlə qidalanmanın başlanması, davamı və ya dayandırılması, 6.2% döşlə qidalanmanın başlanması, davamı və ya dayandırılması və əlavə qidanın nə vaxt verilməsi və digər müxtəlif cavablar vermişlər.

64 nəfər (49.6%) tibb işçisi hesab edir ki, qadınlara yenidoğulmuş və körpə uşaqların qidalanmasına dair məsləhəti doğuşdan əvvəl, 22 nəfər (17.1%) - doğuşdan dərhal sonra, 19 nəfər (14.7%) - doğuşdan əvvəl və dərhal sonra, 10 nəfər (7.8%) – doğuşdan sonra, 9 nəfər (7%)- doğuşdan əvvəl və sonra, 5 nəfər (3.9%) isə - hər 3 mərhələdə verilməlidir. Doğuşdan əvvəl deyən tibb işçilərinin 65.6% uşaq qidalanmasına dair təlim keçmişlər.

**Tibb işçilərinin fikrincə qadınlara yenidoğulmuş və körpə uşaqların qidalanmasına dair məsləhət nə vaxt verilməlidir**

| | |
|---|---|
| doğuşdan əvvəl | 49.6% |
| doğuşdan dərhal sonra | 17.1% |
| doğuşdan əvvəl və dərhal sonra | 14.7% |
| doğuşdan sonra | 7.8% |
| doğuşdan əvvəl və sonra | 7% |
| doğuşdan əvvəl, dərhal sonra və doğuşdan sonra | 3.9% |

81.4 % tibb işçisi uşağın giləni və areolanı tutması və səssiz əmməsini düzgün döşlə əmizdirmə

hesab edir, 17.8% isə - uşağın dodaqları ilə ancaq giləni tutub, marçıltı ilə əmməsini düzgün hesab edirlər, bunlardan 7-si sahə tibb bacısı, 7-si pediatr, 4-ü mama, 3-ü ginekoloq, 2-si tibb bacısıdır.

Eksklüziv döşlə qidalandırmanın əsas tərifi tibb işçilərinin yalnız 38 nəfəri (29.7%) tərəfindən düzgün cavablandırılmışdır, 19 nəfər (14.8%) bilməmiş, digər 71 nəfər tərəfindən isə (55.5%) müxtəlif mülahizələr söylənilmişdir.

**Cədvəl 8. Tibb işçiləri eksklüziv döşlə qidalandırmanı necə başa düşür**




Buna baxmayaraq, tibb işçilərinin 84.5% hesab edir ki, 0-dan 6 aya kimi uşaqlar yalnız döşlə qidalanmalıdır, onlardan 60.6% təlimlər keçmiş tibb işçiləridir. 12.4 % tibb işçisi 0-dan 6 aya kimi uşaqların döşlə və digər mayelərlə, 2.3% - döşlə və əlavə qida ilə qidalanmasını məsləhət görmüşlər.

**Tibb işçilərinin fikrincə 6 aya kimi uşaqlar nə ilə qidalanmalıdırlar**

| | |
|---|---|
| yalnız döşlə | 84.5% |
| döşlə və digər mayelərlə | 12.4 % |
| döşlə və əlavə qida ilə | 2.3% |

Buna əlavə olaraq su, çay və ya heç bir başqa maye verilməməsi şərti ilə körpənin ilk 6 ayına kimi yalnız ana südü ilə qidalandırılması kifayət edərmi sualına 82.9% tibb işçisi - bəli, 16.3% - xeyr, 0.8% - bilmirəm cavabını vermişlər. Müsbət cavab vermiş tibb işçilərinin 58.9% yenidoğulmuş və körpə uşaqların qidalanmasına aid təlimlər keçmişlər.

Körpə uşağa ana südünə əlavə olaraq nə vaxt su, çay və digər maye verilməlidir sualına 69% tibb işçisi 6 ayından (bunlardan 64.8% təlim keçmiş tibb işçiləridir), 21.7 % tibb işçisi ehtiyac olduqda

ilk günündən, 6.2% digər variantlar, 3.1% - 1 yaşdan cavabı söyləmişlər.

**Tibb işçilərinin fikrincə körpə uşağa ana südünə əlavə olaraq nə vaxt su, çay və digər maye verilməlidir**

| | |
|---|---|
| 6 ayından | 69% |
| ehtiyac olduqda ilk günündən | 21.7 % |
| Digər variantlar | 6.2% |
| 1 yaşdan | 3.1% |

Döşlə qidalandırmanı 2 yaşa qədər davam etmək lazım olduğunu 67 nəfər (52.3 %), 1 yaşa qədər - 45 nəfər (35.2% ), ananın südü kəsilənə qədər – 9 nəfər (7%), 6 aya qədər -6 nəfər (4.7%), 3 yaşa qədər – 1 nəfər (0.8%) düşünür.

**Tibb işçiləri döşlə qidalandırmanı nə vaxta qədər davam etdirməyi məsləhət görür**

| | |
|---|---|
| 6 ayına kimi | 4.7% |
| 1 yaşa kimi | 35.2% |
| 2 yaşa kimi | 52.3% |
| Ananın südü kəsilənə kimi | 7% |
| Digər | 0.8% |

0-dan 6 aya kimi uşaqlar gündə neçə dəfə döşlə qidalanmalıdır sualına tibb işçilərindən 62.8% uşaq nə vaxt istəsə, 26.4 % - 4-6 dəfə , 4.7 % - hər 3 saatdan bir, digər 6.2 % müxtəlif cavablar söyləmişdirlər.

81.4 % tibb işçisi hesab edir ki, uşaq doğulandan dərhal və ya 1 saat ərzində döşə qoyulmalıdır, bunlardan 60% yenidoğulmuş və körpə uşaqların qidalanmasına aid təlim keçmiş tibb işçiləridir. Onların əksəriyyəti Bakı, Gəncə və Quba şəhərindəndirlər (müvafiq olaraq 21%, 20%, 18%).

Tibb işçilərinin 59.7 % hesab edir ki, gecələr uşağı döşlə qidalandırmaq lazımdır, 40.3% isə - (onlardan 44.2 % pediatr, 25% ginekoloq, 11.5% mama, 9.6% sahə tibb bacısı, 5.8 % tibb bacısı, 3.8% neonatoloq) bunun lazım olmadığını deyiblər.

**Tibb işçilərinin fikrincə yenidoğulmuş uşaq nə zaman döşə qoyulmalıdır və gecələr döşlə əmizdirilməlidirmi**

| | |
|---|---|
| Dərhal və ya 1 saat ərzində | 81.4 % |

| | |
|---|---|
| Gecələr döşlə əmizdirmək lazımdır | 59.7 % |
| Gecələr döşlə əmizdirmək lazım deyil | 40.3% |

Əgər ana 6 ayına qədər olan uşağa döş südü verə bilmirsə 80.6 % tibb işçisi hesab edir ki, bu zaman onlara süni qida, 1.6% - heyvan mənşəli süd verilməlidir, digərləri isə müxtəlif mülahizələr söyləmişlər. Tibb işçilərinin 70.6% hesab edir ki, bu qida uşaqlara əmzikli şüşə və/və ya plastik qabda verilməlidir, 17.1% tibb işçisi fincanda, qaşıqla və ya hər ikisi ilə verilməlidir demişlər.

**Tibb işçilərinin fikrincə ana 6 ayına qədər olan uşağa döş südü verə bilmirsə nə verməlidir və nə ilə verilməlidir**

| | |
|---|---|
| süni qida | 80.6 % |
| heyvan mənşəli süd | 1.6% |
| əmzikli şüşə və/və ya plastik qabda | 70.6% |
| fincanda, qaşıqla və ya hər ikisi ilə | 17.1% |

Ana südünün uşaq üçün yetərli olmadığını tibb işçilərinin 59% uşağın tez-tez ağlaması və/ və ya yeməkdən əvvəl və sonra uşağın çəkisinin az artması və uşağın arıq olması ilə təyin edirlər.

Heç bir əks göstəriş olmadıqda əlavə qidanı uşağa 6 ayından sonra vermək lazımdır düşünən tibb işçiləri 82.9%, 6 ayına kimi düşünənlər - 11.6%, 7-8 ayından sonra düşünənlər – 3.1%, 1 yaşından düşünənlər – 1.6%, 9-11 ayından düşünənlər – 0.8% təşkil edir. Nə üçün belə düşündüklərini isə 72.1% tibb işçisi ana südünün uşağın tələbatını ödəməməsi ilə izah ediblər.

**Tibb işçilərinin fikrincə əlavə qida uşağa nə vaxt verilməlidir**

| | |
|---|---|
| 6 ayından sonra | 82.9% |
| 6 ayına kimi | 11.6% |
| 7-8 ayından sonra | 3.1% |
| 9-11 ayından | 2.4% |

38.1% tibb işçisi uşaqlara 3 növ ərzaq məhsulu, 30.2% tibb işçisi – 1 və ya 2 növ ərzaq məhsulu, 24.6% tibb işçisi – 4 növ ərzaq məhsulu, 7.1% tibb işçisi isə 5 növ ərzaq məhsulu verilməsini məsləhət görürlər. Buna əlavə olaraq 7.9% tibb işçisi uşaqlara şirin yeməklərin verilməsini də məsləhət görür.

72.1% tibb işçisi hesab edir ki, heç bir əks göstəriş olmadıqda 6 aydan 1 yaşa qədər uşaq döşlə və əlavə qida ilə qidalanmalıdır. Digər 27.9% müxtəlif cavablar vermişdir. 6 aydan 1 yaşa kimi olan uşaqları gündə 4-6 dəfəyə kimi döşlə qidalandırmaq lazımdır hesab edənlər 42.6%, uşaq nə vaxt istəsə - 35.7 %, 3 dəfəyə kimi 18.6%, digər - 2.3%, bilmir – 0.8% təşkil edir.

68% tibb işçisinin fikrinə görə 6 aydan 1 yaşa kimi olan və döşlə qidalanan uşaqlar gündə 2-3 dəfəyə kimi, 23.4% fikrinə görə - 4-5 dəfəyə kimi, 3.9% - nə vaxt istəsə, 0.8% - 3 saatdan bir əlavə qida qəbul etməlidir. 2.3% tibb işçisi bilmədiklərini, 1.6% isə fərqli cavablar söyləmişlər.

Tibb işçilərinin 41.1%-nin fikrinə görə 6 aydan 1 yaşa kimi olan və döşlə qidalanmayan uşaqlar gündə 3 dəfəyə kimi, 41.1%-nin - 4-6 dəfəyə kimi, 4.7%-nin - uşaq nə vaxt istəsə, 3.1%-nin 3 saatdan bir, 2.3%-nin – 7-10 dəfəyə kimi süd qəbul etməlidirlər. 22.7% hesab edir ki, 6 aydan 1 yaşa kimi olan və döşlə qidalanmayan uşaqlara süd verilmir.

48.8% tibb işçisinin fikrinə görə 6 aydan 1 yaşa kimi olan və döşlə qidalanmayan uşaqlar gündə 4-6 dəfəyə kimi, 47.3%-nin fikrinə görə - 3 dəfəyə kimi, 1.6% - nə vaxt istəsə, 0.8% - 3 saatdan bir əlavə qida qəbul etməlidir. 0.8% tibb işçisi bilmədiklərini, 0.8% isə fərqli cavablar söyləmişlər.

Heç bir əks göstəriş olmadıqda 1 yaşdan 2 yaşa kimi uşaqları tibb işçilərinin 27.9% hesab edir ki, döşlə və əlavə qida, 25.6% döşlə və ailənin süfrə xörəkləri, 14.7% ancaq ailənin süfrə xörəkləri və meyvə, tərəvəzlə, 12.4% döşlə, əlavə qida və ailənin süfrə xörəkləri, 11.6% - ailənin süfrə xörəkləri ilə qidalandırmaq lazımdır.

Zənginləşdirilmiş qida haqqında hansı məlumatınız var sualına 18.2% tibb işçisi bilmədiklərini, digər tibb işçiləri müxtəlif fikirlər söyləmişlər.

Tibb işçilərinin 64.1% onların ərazisində ən çox rast gələn problemin analarda südün az olması/ olmaması və ya anada döş infeksiyası/ mastitin olmasını göstərmişdir.

28.6% tibb işçisi döşlərin qızarması, döş gilələrinin çatları, absesi və anada südün az olması

zamanı qadınlara döşlə qidalandırmağın davam etdirilməsini məsləhət görür.

63.1% tibb işçisi (20.3% - döş absesi, 9.4% - ananın hamilə olması, 21.9% - həm hamilə olması, həm döşdə absesin olması) döş absesi və ananın hamilə olduğu zamanı qadınlara döşlə qidalandırmağı məsləhət görmür.

Tibb işçilərinin 38.2% hesab edir ki, döşlə qidalandırmağa dair mütləq əks göstərişlər anada vərəmin açıq forması, döş xərçəngi, insan immunodefisiti virusu, B və C virus hepatitlərinin (İİV) olmasıdır.
Tibb işçilərinin 66.9% uşaqların qidalanmasına dair analara məsləhət üçün vəsait var.

Tibb işçilərinin 55.8% yenidoğulmuş və körpə uşaqların qidalanmasına aid təlimlər keçmişlər. Onlar əsasən Quba, Gəncə və Bakı şəhərindəndirlər.

**Tibb işçisi işlədiyi müəssisədə zahı qadının sorğusu**

Cəmi 45 nəfər zahı qadınla sorğu aparıldı. Zahı qadınların 73.3% fizioloji yolla, 26.7% keysəriyyə əməliyyatı vasitəsilə uşaqları doğublar. Uşaqların 57.8% ana ilə eyni otaqda, 37.8% ana ilə fərqli otaqda, 4.4% reanimasiyada yerləşdirmişlər.

Qadınların 88.9%-nə tibb işçisi uşağı döşə qoymaq qaydalarını öyrətmişdir. 40 nəfər anadan 91.1%-nə uşağın qidalandırılması haqqında məlumat verilmişdir. Anaların 95 %-nə bu məlumat tibb işçisi tərəfindən 20%-nə doğuşdan əvvəl, 77.5%-nə doğuşdan dərhal sonra, 2.5%-nə evdə verilmişdir.
Anaların 42.2%-nin uşaqları ilk bir saat ərzində döşlə əmizdirilib. 44 uşaqdan 50%-nə ilk 3 gün ərzində heç bir maye verilməmişdir. 44 ananın 84.1%-nə 6 aya kimi uşağı yalnız ana südü ilə, 9.1%-nə ana südü, su və çayla qidalandırmaq məsləhət görülüb.

Anaların 11.1%-nin fikrinə görə uşağı 6 aya qədər, 33.3%-nin 1 yaşa qədər, 44.4-nin 2-3 yaşa qədər, 8.9%-nin süd kəsilənə qədər qidalandırmaq lazımdır.

Heç bir maye vermədən uşağın 6 ayına qədər yalnız döşlə qidalandırılmasının anaların 73.3% kifayət olduğunu, 26.7% - kifayət olmadığını söyləmişlər.

**MARKETLƏRDƏ SATILAN UŞAQ QİDALARININ TƏHLİLİ**

Cəmi 21 market əhatə olunmuşdur.

Bütün regionlarda mövcud uşaq qida məhsullarının adları və mövcud olub-olmaması aşağıdakı cədvəldə göstərilmişdir.

| **N** | **Məhsulun adı** | **Bakı, Nəsimi** | **Bakı, Nizami** | **Bakı, Sabunçu** | **Lənkəran** | **İmişli** | **Quba** | **Gəncə** |
|---|---|---|---|---|---|---|---|---|
| 1. | Nestle | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| 2. | Sahha | • | ✓ | ✓ | • | ✓ | ✓ | ✓ |
| 3. | Nutricia | ✓ | ✓ | ✓ | • | • | ✓ | ✓ |
| 4. | Friso | • | • | ✓ | ✓ | • | ✓ | ✓ |
| 5. | Nutrilak | ✓ | ✓ | ✓ | ✓ | • | ✓ | ✓ |
| 6. | Vinni | ✓ | ✓ | ✓ | ✓ | • | • | ✓ |
| 7. | Aquşa | ✓ | ✓ | ✓ | ✓ | • | ✓ | ✓ |
| 8. | Bebi | ✓ | ✓ | ✓ | ✓ | • | ✓ | ✓ |
| 9. | Humana | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| 10. | Heinz | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |
| 11. | Digər | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ | ✓ |

- ✓ - Var
- • - Yox

“Bebi” süni qida məhsuluna yalnız Gəncədə, “Heinz” süni qidasına isə Bakıda rast gəlinib.

“Nestle”, “Sahha”, “Nutricia”, “Friso”, “Nutrilak”, “Humana” süni qida məhsulları “Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında” Azərbaycan Respublikasının Qanunundan götürülmüş 10 meyardan əksəriyyətinə uyğundurlar. Yalnız “Aquşa” süni qida məhsulunun üzərində Azərbaycan dilində yazı yox idi.

## YEKUN NƏTİCƏ

Sorğu olunmuş anaların əksəriyyəti (98,2%) evlidir. Ailələr əsasən (51,1%) 4-5 nəfərdən ibarətdir. Anaların əksəriyyətində (89,2%) yaşadığı ev şəxsi və ya hökumət evidir. Evlər əsasən (74,4%) qaz və elektrik soba ilə qızdırılır. Axar su, elektrik enerjisi, telefon, soyuducu, televizor və paltaryuyan maşın evlərin əksəriyyətində vardır.

Analar körpə uşaqların qidalandırılması haqında məlumatı ilk dəfə əksər hallarda (84%) tibb işçilərindən alırlar. Analar körpənin qidalandırılması haqqında (84%), uşaqların sağlamlığına aid məlumatları (77,1%) tibb işçilərindən alırlar. Əksər hallarda bu məlumat analara doğuşdan dərhal sonra (65,9%) və doğuşdan sonra (19%) doğuşa yardım tibb müəssisələrində verilir. Qadın məsləhətxanalarında hamilə qadınlara körpələrin qidalandırılması haqqında məlumat nadir hallarda (9,4%) verilir.

Anaların uşağın qidalandırılması haqqında bilikləri kifayət qədər deyil. Belə ki, anaların 44,3%-i hesab edir ki, uşağı 1 yaşa kimi döşlə qidalandırmaq lazımdır. Anaların 50,3%-i düşünür ki, uşağı 6 aya qədər heç bir maye vermədən qidalandırmaq mümkün deyil. Anaların 40%-i hesab edir ki, əlavə qida süni qida deməkdir. Anaların təxminən 1/4 səfhən hesab edir ki, əlavə qida uşağa ilk 5 ayında verilməlidir. Uşaqları neçə müddət ərzində döşlə qidalandırmaq lazım olduğunu Bakı şəhərindəki analar respublikanın sorğu üçün seçilmiş digər yerlərindəki qadınlarla müqayisədə daha zəif bilirlər.

Sorğu olunmuş anaların uşaqlarının əksəriyyəti (97,3%) tibb müəssisələrində doğulub və əksəriyyəti (95.1%) nə vaxtsa döşlə əmizdirilib. Heç bir zaman uşağını əmizdirməyən analar bunu subyektiv səbəblərlə izah ediblər.

Sorğuda iştirak edən qadınların uşaqlarının əksəriyyətinin (97,3%) tibb müəssisələrində doğulması və 77 doğuşa yardım tibb müəssisələrindən 67-si Körpə Dostu Klinikası statusunu almasına baxmayaraq, uşaqlar əksər hallarda (64,5%) ana ilə fərqli otaqlarda yerləşdirilirlər.

Uşaqların yalnız təxminən 1/5 doğulduqdan dərhal sonra və ya 1 saat ərzində döşlə əmizdirilib. Doğulandan sonra ilk bir saat ərzində döşlə əmizdirilən uşaqların faizi respublikanın sorğu üçün seçilmiş digər yerlərində Bakı ilə müqayisədə daha çoxdur.

Uşaqların 83%-nə maye doğulan günü və ya ilk 3 gün ərzində verilmişdir. Bunun səbəbini anaların

37.1% xəstəxanada uşağa maye verilməsi, 33.9% tibb işçisinin onlara öyrətməsi, 19.6% isə ailənin, yaxınlarının məsləhət görməsi ilə izah ediblər.

2 yaşa qədər uşaqların təxminən yarısı (48,4%) sorğu aparılan zamanı döşlə əmizdirilirdi. 0-5 aylıq uşaqların təxminən 3/4 döşlə əmizdirilir. Eyni zamanda, 6 aya qədər uşaqlar arasında əlavə qida alan uşaqlar 34.4% təşkil edir.

Hal-hazırda döşlə əmizdirməyən anaların əksəriyyəti (85,6%) və hal-hazırda döşlə əmizdirən anaların əksəriyyəti (92,3%) gecələr uşaqlarını döşlə əmizdiriblər.
Ötən gün ərzində uşaqların 30.3% 3 növ, 27.5% 4 növ qida məhsulu ilə qidalanmışlar. Bu qida uşaqlara əsasən (53,9%) qaşıqla verilir.

Uşaqların yarısından çoxuna (55,3%) əlavə qida 6 ayından, digərlərinə (43,5%) isə ilk 5 ayından verilib. Əlavə qidanın bu yaşda verilməsini anaların yarısı həkimin məsləhət görməsi ilə izah ediblər.

6 aya qədər uşaqların yalnız 10.2% maye verilmir.

Uşaqların 70.8%-nə ötən gün ərzində əmzikli qabda nə isə içizdirilib. Bunların əksəriyyəti 1 yaşa qədər uşaqlardır.

Sorğu olunmuş tibb işçilərinin iş stajı əsasən (81,3%) 20-40 il arasıdır. Tibb işçiləri analara əsasən (51,2%) döşlə qidalandırmanın başlanması haqqında məlumat verirlər. Bunların çoxu təlim keçmiş tibb işçiləridir.

Eksklyuziv döşlə qidalandırma tərifini sorğu olunmuş tibb işçilərinin yalnız üçdə biri bilirdi. Buna baxmayaraq tibb işçiləri (84,5%) hesab edir ki, 0-dan 6 aya qədər uşaqlar yalnız döşlə qidalanmalıdır. Altı ay ərzində uşağın yalnız döşlə qidalandırılmağının tərəfdarı olan tibb işçilərinin 60,6%-i bu haqda təlim keçmişdir.

Buna əlavə olaraq tibb işçilərinin çoxu (82,9%) hesab edir ki, su, çay və ya heç bir başqa maye verilməməsi şərti ilə körpənin ilk 6 ayına kimi yalnız ana südü ilə qidalandırılması kifayət edər. Belə düşünən tibb işçilərinin 58,9%-i bu haqda təlim keçmişdir.

Körpə uşaqların qidalandırılması haqda tibb işçilərinin analara/gələcək analara verdiyi məsləhətləri əksər hallarda natamamdır.

Tibb işçilərinin yarısından çoxu (62,8%) hesab edir ki, uşaq nə vaxt istəsə döşlə qidalandırılmalıdır. Tibb işçilərinin əksəriyyətinin (81,4%) fikrinə görə, uşaq doğulandan dərhal və ya 1 saat ərzində döşə qoyulmalıdır. Belə düşünən tibb işçilərinin yarısından çoxu (60%) təlim keçmiş tibb işçiləridir. Gecələr uşağı döşlə qidalandırmaq lazım olmadığını düşünən tibb işçilərinin sayı 40,3% təşkil edir. Uşağın gecə saatlarında döşlə əmizdirilməsinin, iki il ərzində döşlə qidalandırmağın zəruriliyini 40%-dən artıq tibb işçisi bilmir.

Tibb işçisinin (80,6%) fikrincə ana uşağa döş südü verə bilmirsə, o zaman uşağa süni qida verilməlidir. Tibb işçilərinin 70,6%-i düşünür ki, bu qida uşaqlara əmzikli qabda verilməlidir.

Tibb işçilərinin əksəriyyəti (82,9%) düşünür ki, əlavə qida uşaqlara 6 ayından sonra verilməlidir. Onların düşündüklərinə görə uşaqlara 3 növ qida məhsulu verilməlidir. 7,9%-i şirin yeməklərin uşaqlara verilməsini də məsləhət görür.

Tibb işçilərinin əksəriyyəti (72,1%) düşünür ki, 6 aydan 1 yaşa kimi uşaqlar döşlə və əlavə qida ilə qidalandırılmalıdırlar.

Zənginləşdirilmiş qida haqqında tibb işçilərinin məlumatı yoxdur.

Ən çox rast gəlinən (64,1%) problem kimi tibb işçiləri xidmət göstərdikləri analarda südün az olması və ya olmaması və anada döş infeksiyası/mastitin olmasını göstərmişlər.

Döşlərin qızarması, döş giləl期 çatları, absesi və anada südün az olması zamanı tibb işçilərinin 28,6%-i qadınlara döşlə qidalandırmağı məsləhət görür.

Tibb işçiləri (63,1%) ananın hamilə olması və döş absesi zamanı qadınlara döşlə qidalandırmağı məsləhət görmürlər.

Tibb işçilərinin (38,2%) fikrincə anada vərəmin, döş xərçənginin, insan immunodefisiti virusunun, B və C virus hepatitlərinin olması döşlə qidalandırmağa dair mütləq əks göstərişlərdir.

Təlim keçmiş tibb işçilərinin arasında bilikləri yüksək olanlar çoxluq təşkil edir.

Müşahidə zamanı məlum olmuşdur ki, Bakı və Gəncə şəhərlərində, demək olar ki, bütün növ süni qida məhsullarını əldə etmək olar. İmişlidə və Lənkəranda uşaq qidaları əsasən apteklərdə satılır.

“Nestle”, “Sahha”, “Nutricia”, “Friso”, “Nutrilak”, “Humana” süni qida məhsulları “Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında” Azərbaycan Respublikasının Qanunundan götürülmüş 10 meyardan əksəriyyətinə uyğundurlar. Yalnız “Aquşa” süni qida məhsulunun üzərində Azərbaycan dilində yazı yox idi.

“Vinni”, “Bebi”, “Heinz” süni qida məhsulları təyin olunmuş 10 meyardan bir neçəsinə uyğun deyildi.

**Qiymətləndirmənin zəif tərəfləri**

Bəzi suallar xatırlama ilə bağlı olduğuna görə, burada səhv ehtimalı da var.

Ölmüş uşaqların analarının sorğusu mənəvi cəhətdən çətin olduğuna görə, onlar qiymətləndirməyə daxil edilməyiblər.

Anaların sorğusu zamanı qayınananın yaxınlıqda olması bəzi sualların nəticələrinə təsir göstərib. Misal üçün, uşağa qulluq etməkdə anaya kim kömək edir sualına anaların əksəriyyəti qayınananın da kömək etdiyini söyləyiblər.

Rayonlarda uşaq qidalarının marketlərdən əlavə əsasən apteklərdə satıldığına görə apteklər də müşahidəyə cəlb olunmuşdur.

## TÖVSİYƏLƏR

1. Körpə uşaqların sağlamlığı, o cümlədən döşlə qidalandırılması, bu haqda qadınlara məsləhət verilməsinə dair tibb işçilərinin biliklərinin artırılması üçün uşaq qidalandırılmasına dair təlimlərin təşkili.
2. Uşaq qidalandırılmasına dair tibb işçiləri üçün mövcud olan təlim/tədris materialları və metodikasının müasir standartlara uyğun təkmilləşdirilməsi.
3. Uşaq qidalandırılmasına aid klinik protokolun hazırlanması və bu protokol üzrə tibb işçiləri üçün təlimlərin təşkili.
4. Körpə uşaqların sağlamlığı, o cümlədən döşlə qidalandırılması haqqda məsləhətlərin antenatal xidmətlərin ayrılmaz tərkib hissəsinə çevrilməsi.
5. Tibb işçilərinin uşaqların qidalandırılması haqqında qadınlara məsləhət verməsi üzrə monitorinq sisteminin yaradılması.

6. Uşaqların qidalandırılması sahəsində geniş miqyaslı kommunikasiya/maarifləndirmə strategiyasının hazırlanması və tətbiqi.
7. Uşaq qidalarının üzərindəki düzgün informasiyanın verilməsi üzrə monitorinqin gücləndirilməsi.
8. "Körpə dostu klinikası" statusunun verilməsi meyarlarının yüksəldilməsi.

**İSTİNADLAR**

---

[i] http://www.undp.org/mdg/goal4.shtml

[ii] http://www.who.int/whosis/whostat/RU_WHS09_Full.pdf

[iii] http://www.unicef.org/socialpolicy/files/ChildrenUnderSix.pdf

[iv] http://www.meclis.gov.az/?/az/legislation/view/626

[v] http://www.gender-az.org/Files/Report%202003az.doc

[vi] http://e-qanun.az/files/framework/data/12/c_f_12097.htm

[vii] http://www.health.gov.az/news.php?id=691

[viii] Базовая помощь новорожденному - международный опыт, Москва, 2008 г.- акад.РАМН Н.Н.Володин, акад. РАМН Г.Т.Сухих

[ix] http://www.righttofoodindia.org/data/joint_statement_26march.pdf

[x] http://guidelines.gov/content.aspx?id=9847

[xi] Базовая помощь новорожденному - международный опыт, Москва, 2008 г.- акад.РАМН Н.Н.Володин, акад. РАМН Г.Т.Сухих

[xii] http://www.unicef.org/programme/breastfeeding/baby.htm